HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 avqust 2017-ci il
№016 (54)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLƏRİ BAKIDA GÖRÜŞƏCƏKLƏR



Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin üçtərəfli görüşü sentyabrın əvvəlində keçiriləcək. Yayılan xəbərdə Elmar Məmmədyarov, Mixeil Canelidze və Mövlud Çavuşoğlunun Bakıda bir araya gələcəkləri bildirilir.

Xəbərdə deyilir: “Görüşün sentyabrın birinci ongünlüyündə Bakıda keçirilməsi nəzərdə tutulur. Bu, növbəti görüşdür. Görüşdə XİN-nin başçıları cari regional məsələləri, eləcə də üçtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək niyyətindədirlər”.

Görüşün gedişində üç ölkə ərazisində genişmiqyaslı regional layihələrin gerçəkləşdirilməsi məsələləri də müzakirə ediləcək.

## BAŞ NAZİRİN MÜŞAVİRİ: AZƏRBAYCAN GÜRCÜSTANIN STRATEJİ TƏRƏFDAŞIDIR



Gürcüstan baş nazirinin xarici siyasi məsələlər üzrə müşaviri Tedo Çaparidze avqustun 22-də Caspian European Club и Caspian American Club-un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyevi qəbul edib.

Hökumət administrasiyasının məlumatına görə, görüşdə yaxın 5 ildə Caspian Energy Georgia çərçivəsində gerçəkləşdiriləcək plan və layihələr nəzərdən keçirilib.

Gürcüstan baş nazirinin müşaviri Tedo Çaparidze qeyd edib ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. O, birgə layihələrin gerçəkləşdirilməsinin yüksək sürətlə getdiyini də vurğulayıb. Çaparidze deyib: “Dövlət qurumları səviyyəsində qarşılıqlı anlaşma və əməkdaşlıq Gürcüstanın və Azərbaycanın özəl sektor nümayəndələrinin sıx əlaqələr yaratmasını şərtləndirir”.

Öz sıralarında dünyanın 50 ölkəsindən 5 mindən çox şirkət və təşkilatı birləşdirən Caspian European Club Xəzər-Qaradəniz rejionunda işləyən nəhəng neft-qaz şirkətlərinin dəstəyilə 2002-ci ilin iyununda təsis olunub. Caspian European Club-un sədri Azərbaycanın prezidenti İlham Əliyevdir.

## MARQVELAŞVİLİ: NƏ QƏDƏR HƏQİQİ DOSTUMUZ OLDUĞUNU GÖRDÜK



Nə qədər həqiqi dostumuz olduğunu gördük. Azərbaycanlılar, türklər, ermənilər, belaruslar, habelə avropalı və amerikalı tərəfdaşlarımız öz mövqelərini ortaya qoydular. Bu fikri Borjomi-Xaraqauli qoruğunda baş verən yangın hadisələrinə münasibət bildirərkən Gürcüstan prezidenti Georgi Marqvelaşvili səsləndirib.

Onun sözlərinə görə, insan və maddi itki olmaması uğrunda mübarizə apararkən, dostlardan yardım almaq vacibdir, həm də sevindiricidir.

Georgi Marqvelaşvili bildirib: “Səsimizə səs verən və kömək edən bütün dostlar sağ olsun. Gördüyünüz kimi yanğın artıq ləğv olunub, lakin bu ərazinin sona qədər hazırlanması üçün çox zaman lazımdır. Adamlar gecə-gündüz işləyirlər”.

Baş verənləri təxribat kimi dəyərləndirmək olarmı sualına Georgi Marqvelaşvili problem yaranan zaman hamı həmin problemin tənzimlənməsi üçün birləşməlidir şəklində cavab verib.

Prezident deyib: “Problem olanda biz problemin həlli üçün birləşməliyik. Problemi birlikdə həll etdikdən sonra suallar verib onlara cavab axtarmağa başlamalıyıq. Bu qaydanı biz hər zaman gözləməliyik”.

## ÖLKƏMİZDƏ SEÇKİQABAĞI KAMPANİYAYA START VERİLDİ

Gürcüstanda seçkiqabağı kampaniya başlayıb. Seçkiqabağı kampaniyanın başlaması günündən etibarən dövlət strukturlarına, dövlət çinovniklərinə və vəzifəli şəxslərə münasibətdə məhdudiyyət qüvvəyə minir. İnzibati resurslardan, vəzifə və ya xidməti vəziyyətdən istifadə edilməsi nöqteyi-nəzərindən“Seçki Məcəlləsi”nin müəyyən etdiyi bütün qadağalar fəaliyyətə başlayır.

“Gürcü arzusu” deputatlarının təşəbbüsü ilə parlamentin yaz sessiyasının sonlarında seçki qanunvericiliyində həyata keçirilən dəyişikliyə əsasən prezident seçkilərə 60 gün qalmış yerli idarəetmə seçkilərini təyin edir. Buna uyğun olaraq, seçkiqabağı kampaniya səsvermə




günündən 60 gün əvvəl başlayır. Buna qədər isə seçkilərin vaxtını 60 gündən əvvəl təyin etməyə və seçki kampaniyasına 60 gündən tez başlamağa icazə verən qayda fəaliyyət göstərirdi.

## GÜRCÜ ALPİNİSTLƏRİ XAN TANRI ZİRVƏSİNİ FƏTH ETDİLƏR



Gürcü alpinistləri Tyan-Şan dağlarının ən yüksək zirvəsini fəth ediblər. Bidzina Qucabidze, Zurab Kvesitdze və Laşa Kvekveskiri Qazaxıstan, Qırğızıstan, Çin sərhədidə yerləşən Xan Tanrı zirvəsinə (7010 metr) qalxıblar.

Ekspedisiyaya yeddi idmançı daxil idi. Onların Mərkəzi Asiyaya səyahətləri bir aydan çox davam edib. Bu müddət ərzində onlar bir çox maneə və çətinlikləri dəf etməli olublar.

Gürcü alpinistlərinin hamısı türkcədən tərcümədə “Səma padşahı” anlamı verən Xan Tanrı zirvəsinə qalxa bilməyib. Zirvəyə ekspedisiya üzvlərindən yalnız üçü qalxıb.

İdmançılar ekspedisiyanın yola düşməsinə yardım edən Gürcüstanın Birləşmiş Alpinistlər Federasiyasına və Kazbeqi rayon administrasiyasına təşəkkür ediblər.

Tyan-Şan beynəlxalq alpinizmin məbədlərindən biridir. Xan Tanrı zirvəsi onun mirvarisi və ən gözəl yüksəkliklərindən biri hesab edilir.

Xan Tanrı zirvəsi ilk dəfə 1931-ci ildə fəth olunub. O, dünyanın ən çətin və təhlükəli zirvələrindən biridir. Onun nadir, itiuclu piramidası mərmərdən və əhəngdaşından yaranıb. Son on il ərzində bu zirvənin fəth edilməsi zamanı müxtəlif ölkələrdən 10-dan çox alpinist həlak olub.

İNSAN MƏNƏVİYYATINI SINAĞA ÇƏKƏN TƏBİİ FƏLAKƏT 2

CƏMİYYƏTİN XİLASI ƏDƏBDƏN KEÇİR 3

TÜRKİYƏ XARİCİ SİYASƏTİNİN YENİ CİZGİLƏRİ 4

MƏNİM HÜSNXƏT DƏFTƏRLƏRİM (fonoqrafik) 5

DÖRDÜNCÜ ONE CAUCASUS – VAHİD QAFQAZ FESTİVALINDAN QEYDLƏR 6

MİRVARİNİ QAÇIRANLAR 7



## İNSAN MƏNƏVİYYATINI SINAĞA ÇƏKƏN TƏBİİ FƏLAKƏT

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

***Son iki ildə, yəni 2015 və 2016-cı illərdə istilərdən çəkmədiyimiz qalmadı. Elə 2017-ci il də, deyəsən, özündən əvvəlki iki ildən istilər baxımından geri qalmır. Bunu öz yanımdan, faktlara söykənmədən demirəm. Bu sahənin mütəxəssisləri xeyli vaxtdır ki, dünyanın başbilənlərini təxirəsalınmaz tədbirlər görməyə çağırıb, həyacan təbili çalmaqdadırlar. Qlobal istiləşmə deyilən andır bizi get-gedə daha çox sıxışdırıb, təhdid etməkdədir. Və havaların quraqlıq keçməsi yanında bir çox fəsadlar da gətirməkdədir ki, onlardan biri də yanğınlardır. Elə buradaca vurğulamaq istəyirəm ki, mütəxəssislərin yanğınları təbii fəlakət adlandırmalarıyla adam barışmaq istəmir. Nədən ki, əksər yanğınlar insan faktorundan qaynaqlanır. Oxucuları intizarda saxlamadan deyim ki, yanğınlar sarıdan bu il bizim də "bəxtimiz gətirib". Yanğının birini söndürməmiş, digəri ortaya çıxıb. Borjomi-Xaraqauli qoruğunda baş verən yanğın isə ölkəmiz üçün sözün bütün mənalarında bir sınağa çevrildi, bu yanğın nəticəsində biz dostumuzu-düşmənimizi tanıdıq.***

Bu yay yanğın xəbərlərini daha tez-tez alırıq dememi bilirəm ki, qəribliyə salmayacaqsınız. O üzdən ki, elə yaşadığımız kənddə, qəsəbədə və ya şəhərdə miqyasına görə bu və ya digər yanğın xəbəri almayan qalmayıb. Kiminsə evi yanıb, kiminsə maşını, bir başqasının da bizim bilmədiyimiz nəyisə. "Yalançının evi yandı, heç kim inanmadı" məsəlinin qəhrəmanının gününə düşənlərin olub-olmadığından xəbərim yoxdur. Amma yanğınsöndürən maşınların çıxardığı tükürpədici səslərin intensivləşməsi yanğınların yalan olmadığından xəbər verir. Yanğın fəlakətdir, afətdir, bəladır. Yanğın fərdi olduğu qədər də, ictimai hadisədir. Yanğın səbrin, dözümün, əxlaqın, tərbiyənin sınağa çəkildiyi bir məqamdır. Yanğın insanlara böyük bəlaları birlikdə ram etməyi öyrədən, ən azından bizi buna vadar edən bir olaydır. İstənilən təbii fəlakət zamanı baş verən olaya insanların münasibəti də fərqli olur. Elə yanğınlar zamanı da belədir. Bu zaman müxtəlif rəylərin, fərqli fikirlərin, dürlü-dürlü mülahizələrin, hətta cürbəcür şaiyələrin meydana çıxması inkarolunmazdır və çox təbiidir. Təbii fəlakət zamanı insanların davranışında bir neçə cəhəti fərqləndirmək olar. Belə məqamda adamların bir qrupu özünü oda-közə vuraraq, cani-könüldən, qarşılıq gözləmədən fəlakətin nəticələrinin aradan qaldırılması üçün çalışır, bir qrup isə özünü kiminsə gözünə soxmaq üçün saxta fəallığını sərgiləyir, üçnücü qrup isə "az aşım, ağrımaz başım" prinsipiylə biganəliyini ortaya qoyur, dördüncü qrup isə fəlakətdən faydalanmağı, qazanc götürməyi düşünür.

Yanğın Borjomi-Xaraqauli qoruğunda 100 hektara yaxın nadir meşə sahəsini məhv edib. Bu, bir ölkə kimi bizim maddi itkimiz, ekoloji fəlakətimizdir. Amma bizim mənəviyyatımız da sınağa çəkildi. Bu yanğının qəsd işi olduğunu söyləyənlər, təxribat məqsədilə törədildiyini bəyan edənlər hər tərəfdə suçlu-günahkar axtarmağa başladılar. Bir-birimizi də suçladıq, qonşulardan da şübhələndik. Məsələn, bunun Rusiyanın əməli olduğunu dilə gətirənlər də oldu. Amma RF XİN-nin sözçüsü Mariya Zaxarova tezbazar bu fikri "qeyri-sağlam fantaziya" adlandıraraq öz dövlətini sağlalayıb, təmizə çıxarmağa çalışdı. Nə demək olar, "bir dinsiz and içir, bir imansız da inanır". De gəl ki, "od olmasa, tüstü çıxmaz" deyənlərə də haqq qazandırmalıyıq. Nədən ki, 2008-ci ilin avqust müharibəsində elə həmin ərazidə 950 hektara yaxın meşə sahəsində baş verən və 250 hektar meşənin məhv olması ilə nəticələnən yanğın məhz Rusiyadan qaynaqlanırdı. Bu məqamda ilan vuranın ala çatıdan qorxması təbii deyilmi?

Camaatın – fəhlədən tutmuş prezidentəcən, baş nazirdən kəndliyəcən – yanğınla mübarizə apardığı bir məqamda, ölkənin taleyüklü bir anında tamahına hakim ola bilməyən brokonyerlər yanğını öz məqsədləri, öz mənfəətləri üçün fürsət bilərək, odun tədarükünə başladılar. Bax, atalar bu yerdə deyiblər: "Keçi can hayındadır, qəssab piy axtarır". Ağacların qanunsuz kəsilməsinə görə qanunla onları cəmi 500 lari cərimə etmək mümkündür, ikinci dəfə isə 1000 lari. Vəssalam, bununla iş bitir, qanun öz yerini vicdan məhkəməsinə verməli olur. Əlbəttə, vicdanı olanlar üçün. Ölkənin belə bir çətin zamanında, vətəndaş birliyi nümayiş etdirilən bir şəraitdə bütün bunlar mənəvi dəyərlərin inflyasiyası, deqradasiyası kimi görünür.

***Yuxarıda da vurğuladığım kimi, Borjomi-Xaraqauli meşə yanğını həm də insan mənəviyyatının yaxşı tərəflərini üzə çıxarmaqda bizə yardımçı oldu, dostumuzu-düşmənimizi tanıdıq. Prezident səviyyəsində, baş nazir səviyyəsində yanğının söndürülməsində köməyini əsirgəməyən dostlara təşəkkür edildi. Yanğınların söndürülməsində yüzlərlə yanğınsöndürəni, xilasedicisi, helikopter və təyyarəsi, xüsusi texnikası ilə yaxından iştirak edən dost ölkələrə – Azərbaycana, Belorusa, Türkiyəyə və Ermənistana, eləcə də köməyini təklif edən ABŞ, Almaniya, Rumıniya, Rusiya və habelə yanğının məhv etdiyi meşə sahəsinin bərpasına bu və ya digər dərəcədə qatqıda bulunan və ya bulunacağını vəd edən təşkilatlara, şirkətlərə təşəkkür etməyə dəyər.***

## SOCAR GÜRCÜSTANDA MEŞƏ YANĞINLARININ SÖNDÜRÜLMƏSİ ÜÇÜN 65 TON YANACAQ VERİB




Azərbaycan Dövlət Neft Şirkətinin "SOCAR Georgia Petroleum" törəmə şirkəti Borjomi-Xaraqauli qoruğunda meşə yanğınlarının söndürülməsi üçün Gürcüstana 65 ton yanacaq verib. Bu məqsədlə "SOCAR Georgia Petroleum" 45 ton təyyarə yanacağı, 10 ton benzin və 10 ton dizel yanacağı ayırıb. "SOCAR Georgia Petroleum" gələcəkdə yanğın nəticəsində məhv olmuş meşələrin bərpasında iştirak edəcəyini də bildirib.

Xatırladaq ki, Gürcüstanda meşə yanğınları avqustun 20-də başlayıb. Ərazidə əsən külək yanğının tam söndürülməsinə imkan vermirdi. Yanğının söndürülməsi məqsədilə xüsusi qərargah yaradılıb. Gürcüstan hökumətinin müraciətinə əsasən, təbii fəlakət zonasına Azərbaycan Fövqaladə Hallar Nazirliyinin 22 texnikası, o cümlədən 1 helikopteri və 131 nəfər canlı qüvvəsi, Azərbaycan Dövlət Sərhəd Xidmətinin 2 helikopteri və 6 nəfər ekipaj üzvü cəlb edilib.

## SON 10 İL ƏRZİNDƏ GÜRCÜSTANDA 4200 HEKTAR MEŞƏ YANIB

Son 10 il ərzində Gürcüstanda 300-ə qədər yanğın qeydə alınıb. Həmin yanğınlar nəticəsində 4200 hektar sahə yanıb. Bu barədə parlamentin deputatı Georgi Qaçeçiladze məlumat verib.

Rəsmi məlumatlar bundan bir qədər fərqlidir, lakin onlar bütövlükdə təxminən eynidir. Statistika Xidmətinin məlumatına görə, həqiqətən də 2007-2017-ci illərdə yanğınların sayı 300-ə çatıb, amma yanan meşə sahələri bir qədər az, yəni 3 769 hektar olub.

2017-ci ildə Gürcüstanda 10 meşə yanğını baş verib. Ən ağır yanğın hadisəsi avqustun 20-də Borjomi dərəsində olub, onun söndürülməsi bir neçə gün davam edib, həm də Türkiyə, Azərbaycan, Ermənistan, Belarus xilasedicilərinin köməyilə mümkün olub.

İtkilərin miqyası barədə hələlik rəsmi



məlumat yoxdur, lakin artıq avqustun 24-də Regional İnkişaf və İnfrastruktur naziri Zurab Alavidze 100 hektara qədər meşənin yanması barədə məlumat vermişdi.

2010-cu il yanvarın 1-ə olan vəziyyətə görə Gürcüstanın meşə fondu 3 milyon hektardır, daha doğrusu ümumi ölkə ərazisinin 43,7-ini təşkil edir, bunun da 2,8 milyon hektarı məhz meşələrin payına düşür, bu da Gürcüstan ərazisinin 40%-i deməkdir.

## SIĞINACAQ ALMAQ XAHİŞİLƏ GÜRCÜSTANA 379 ƏCNƏBİ VƏTƏNDAŞ MÜRACİƏT EDİB

2017-ci ilin birinci yarısında Gürcüstana 379 əcnəbi vətəndaş sığınacaq almaq xahişilə müraciət edib. Bu barədə məlumatı Gürcüstanın İşğal Olunmuş Ərazilərdən Məcburi Köçkünlər, Yerləşdirmə və Qaçqınlar Nazirliyi yayıb.

Sığnacaq almaq istəyənlər arasında 67 İraq, 41 Türkiyə, 40 Misir, 38 İran, 24 Hindistan və 22 Rusiya vətəndaşı olub.

Gürcüstan onlardan 169 nəfərinə sığınacaq verməkdən imtina edib, 121 halda işə müraciət edənlərin öz istəyi ilə son verilib. 46 əcnəbi vətəndaş Gürcüstandan sığınacaq alıb, onlardan 24-ü qaçqın, 22-si isə humanitar status alıb.

## ÖLKƏMİZDƏ 155 SƏHLƏNKAR HƏKİM CƏZALANDIRILDI



Tibbi Fəaliyyətin Tənzimlənməsi Dövlət Agentliyi 2017-ci ildə 155 həkimin peşə məsuliyyətinə cəlb edildiyi barədə məlumat yayıb.

155 həkimdən 90-ı yazılı xəbərdarlıq alıb, 60 həkimin isə dövlət sertifikatının fəaliyyəti dayandırılıb. Onlardan 23-ü bir ay, 30-u iki ay, altısı üç ay, biri isə dörd ay fəaliyyət göstərə bilməyiblər.

Üç həkimin məsuliyyət məsələsi isə həll edilmək üçün hüquq mühafizə orqanlarına təqdim olunub.

2016-cı ildə 198 həkimin peşə məsuliyyətinə cəlb edildiyi, onlardan 105-inin yazılı xəbərdarlıq aldığı, 93 həkimin isə dövlət sertifikatının fəaliyyətinin dayandırıldığı bildirilir.

Son iki ildə Gürcüstan vətəndaşları Tibbi Fəaliyyətin Tənzimlənməsi Dövlət Agentliyinə bu və ya digər həkimin pasiyentlərə qarşı səhlənkar münasibətinə görə cəzalandırılması tələbilə tez-tez müraciət etsələr də, bir sıra hallarda həkimlərin günahı təsdiqlənməyib.

Tibbi Fəaliyyətin Tənzimlənməsi Dövlət Agentliyi tibbi xidmətin keyfiyyətinə nəzarət edən orqandır.

Agentlik vətəndaşların ərizə və şikayətləri əsasında göstərilən tibbi yardımın keyfiyyətini öyrənir. Agentlik tibb müəssisələrinə lisenziyalar verir, həkimlər arasında sertifikat imtahanlarının keçirilməsini təmin edir, habelə sertifikatlar verir.

## BAKIDAN TBİLİSİYƏ UÇUŞLARI BUTA AİRWAYS AVİAŞİRKƏTİ HƏYATA KEÇİRİCƏK




Azərbaycanın Buta Airways aviaşirkəti sentyabrın 1-dən müntəzəm şəkildə Bakı-Tbilisi-Bakı reyslərini həyata keçirəcək. Bu barədə Gürcüstanın İqtisadiyyat və Sabit İnkişaf Nazirliyi Mülki Aviasiya Agentliyinin məlumatında bildirilir.

Buta Airways "Azərbaycan Hava Yolları"nın (AZAL) əvəzinə fəaliyyət göstərəcək. Əvvəlcə Buta Airways AZAL-ın yerinə həftədə dörd dəfə, oktyabrın 29-dan isə Bakı-Tbilisi-Bakı istiqamətində bütün reysləri yalnız bu aviaşirkət həyata keçirəcək.

Qış naviqasiya mövsümündə, yəni oktyabrın 29-dan martın 24-dək Gürcüstan və Azərbaycan paytaxtları arasında uçuşların tezliyi artırılacaq. Uçuşlar gündə iki dəfə olmaqla həftədə 14 dəfə baş tutacaq.

Məlumatda aviaşirkətə Gürcüstanın İqtisadiyyat və Sabit İnkişaf Nazirliyi Mülki Aviasiya Agentliyi tərəfindən müvafiq icazənin verildiyi bildirilir.

Buta Airways "Azərbaycan Hava Yolları" nəzdində Low Cost modeli əsasında yaradılmış aviaşirkətdir.

## "UNİVERSİTET" METRO STANSİYASI SENTYABRDA AÇILACAQ

Sentyabrın ikinci yarısında Tbilisidə 23-cü metro stansiyası fəaliyyətə başlayacaq. İki ildən çoxdur ki, "Universitet" stansiyasının yenilənmə layihəsi həyata keçirilir. Hal-hazırda yeni stansiyada qatarlar sınaq rejimində hərəkət edir.

Tbilisi metropoliteninin 23-cü stansiyasının tikintisi uzun illər ərzində dondurulmuşdu. Paytaxt metrosunun Delisi stansiyasından universitet istiqamətində ikinci xəttinin davam etdirilməsi layihəsinə 1985-ci ildə başlanılsa da, 1993-cü ildə dayandırılmışdı. Tikintiyə 1998-ci ildə yenidən başlanılmış və 2000-ci ildə bu istiqamətdə Vaja Pşavela stansiyası açılmışdı.

Layihənin dəyəri 83 milyon laridir. Layihəni Asiya İnkişaf Bankının krediti əsasında Munisipial İnkişaf Fondu həyata keçirir.

## GÜRCÜSTAN MİTSUBİSHİDƏN YÜZƏ QƏDƏR ELEKTROMOBİL ALACAQ




Gürcüstan hökuməti Mitsubishi Motors-a yüzə yaxın elektromobil sifariş verib. Onlardan 51-i i-MiEV avtokarı, 45-i isə Outlander PHEV hibrid avtomobillərdir. Maşınlar beynəlxalq inkişaf haqqında Gürcüstan və Yaponiya arasında bağlanmış müqavilə çərçivəsində 2018-ci ilin yanvarında gətiriləcək və onlardan İqtisadiyyat və Sabit İnkişaf Nazirliyi istifadə edəcək. Elektromobillərə xidməti və onların təmirini Caucasus Motors şirkəti həyata keçirəcək.

Kiçik xetçbek i-MiEV və krossover Outlander PHEV rəsmi olaraq Rusiyada satılıb. Lakin Mitusbishi zəif tələbat olduğundan bu modellərin Rusiyaya verilməsini dayandırıb. Əgər Rusiya hökuməti "yaşıl" avtoparkın inkişafını güzəşt və subsidiyalarla stimullaşdırsa elektromobillərin Rusiyaya verilməsi davam etdiriləcək.

Qeyd edək ki, Outlander PHEV Avropada ən çox satılan qeyri-Avropa mənşəli modeldir. Bu model korporativ müştərilər arasında xüsusilə məşhurdur. Məsələn, bu yaz Mitsubishi Ukrayna polis təşkilatına 635 krossover göndərib.

## SON ALTI AYDA 3331 YOL-NƏQLİYYAT HADİSƏSİ QEYDƏ ALINIB

Son altı ayda Gürcüstanda 3331 yol-nəqliyyat hadisəsi qeydə alınıb, 4696 nəfər zərər görüb, 275 nəfər isə həlak olub.

Avtonəqliyyat hadisələrinin ən yüksək göstəricisi may və iyul aylarında qeydə alınıb.

DİN-nin statistikasına əsasən, cari ilin yanvarında 499 yol-nəqliyyat hadisəsi qeydə alınıb, bu hadisələr nəticəsində 735 nəfər zərər görüb, 58 nəfər isə həlak olub. Fevralda baş verən 406 yol-nəqliyyat hadisəsində 542 nəfər zərər çəkib, 26 nəfər isə həyatını itirib.

Mart ayında qeydə alınmış 427 yol-nəqliyyat hadisəsində 529 nəfərin zərər gördüyü, 26 nəfərin öldüyü bildirilir. Apreldə baş verən 455 yol-nəqliyyat hadisəsi 643 nəfərin yaralanmasına, 44 nöfərin həlak olmasına səbəb olub.

May ayında isə göstəricilər belədir: 504 yol-nəqliyyat hadisəsi və bunun nəticəsində 734 yaralı, 43 ölü. İyun ayında baş verən 503 yol-nəqliyyat hadisəsi nəticəsində 36 nəfər ölüb, 685 nəfər isə yaralanıb. İyulda da yol-nəqliyyat hadisələrinin sayında artım baş verib. Belə ki, 537 yol-nəqliyyat hadisəsi nəticəsində 778 nəfər yaralanıb, 42 nəfər isə ölüb.

## SOCAR KULEVİ TERMİNALINDAN 0,8 MİLYON TON NEFT VƏ NEFT MƏHSULLARI YOLA SALIB

2017-ci ilin yanvar-iyun ayları ərzində Kulevi terminalından SOCAR-a məxsus 0,8 milyon ton neft və neft məhsulları yola salınıb.

APA-Ekonomiksin yerli bürosu Gürcüstanın İqtisadiyyat və Sabit İnkişaf Nazirliyinə istinadən məlumat verib ki, hesabat dövründə ölkənin dəniz limanları və terminalları vasitəsilə 8,3 milyon ton yük dövr edib. 2017-ci ilin yanvar-iyun ayları ərzində Poti limanından 3,2 milyon ton, Batumi limanından 2,2 milyon ton, Supsa terminalından isə 2,1 milyon ton yük yola salınıb.

## CƏMİYYƏTİN XİLASI ƏDƏBDƏN KEÇİR



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

***Bir müddət öncə yenə bu mövzuda qələmimi dilləndirib qısa da olsa düşüncələrimi sizlərlə bölüşmüşdüm. Doğrusu o zaman hədəfimdə yanındakı qadının açıq-saçıq geyinməsini özünə bir mədəniyyət düsturu götürmüş "kişilər" idi. Ancaq bu dəfə bu mövzuya yenidən qayıtmağımın səbəbi elə bu "kişilər"in mədəniyyət deyib yarıçılpaq halda qoluna girib küçədə dolaşdırdığı o "mədəni" qadınların (sözsüz ki, mövzu yolunu azmış qadınlardan gedir) həm müsəlmançılığımıza, həm türkçülüyümüzə vurduqları ədəb zərbəsidir.***

Onun üçün də istədim təkrar da olsa, ədəb və həya mövzusunu qələmə alım. Baxma, bəlkə utanıb qızaranlar ola.

Ədəb, ağıl və hikmətə müvafiq hərəkət edib, Cənabı Haqqın əmr etdiyi kimi yaşamaqdır. Həya isə, utanma və ar duyğusu olub, utancverici vəziyyətlərdən çəkinmək və nəfsin süfli arzularını tərk etməkdir.

Ədəb, bütün hallarda istiqamət və yaxşılıq üzrə olmaqdır.

Ədəb, ağlı ikmal edən, onu nurlandıran, imanı kamala çatdıran, insanı ruhən tərəqqi etdirib səadət və salamatlığa qovuşduran ən xeyirli bir sərmayədir.

İffət, həya, şərəf və istiqamət kimi gözəl əxlaqdan məhrum olan fərd və cəmiyyətlər, elm, iqtisadiyyat və texnika sahəsində nə qədər inkişaf etsələr də, xüsrandan xilas ola bilməz və hüzur içində yaşaya bilməzlər. Bu üstün keyfiyyətlərdən məhrum olan fərdlər, mədəni, təhsilli, bacarıqlı olursa olsunlar, o millət, bu fərdlərə istinadən bir ahənglə tərəqqi edə bilməz. Bu baxımdan, fərd və cəmiyyəti iman, əxlaq, fəzilət, mədəniyyət, elm, ədəb və həya ilə təchiz etmək lazımdır ki, maddi və mənəvi tərəqqi əldə edilsin. Ədəb və mədəniyyət sahibi olanlar, həyatını nizam və intizam içində keçirər və hüzur ilə yaşayarlar. İnsanlığın ruhu, həqiqəti və zinnəti olan ədəb və tərbiyənin fərd və cəmiyyət üçün əhəmiyyəti aşkardır. Bu möcüzə beyt də bu həqiqəti çox yığcam bir şəkildə ifadə etməkdədir:

Ədəb bir tac imiş nuru Xudadan,
Gey ol tacı, əmin ol hər bəladan.

Bəzi şəxslər: "Ədəb sözü, əlif, dəl və bə hərfindən ibarətdir(ادب). Əlif, adamın əlinə, dəl hərfi adamın dilinə, bə hərfi də belinə sahib olmasına işarə edir", – deyiblər.

Qədim zamanlarda evlərin və iş yerlərinin divarlarına "Ədəb Ya Hu!" yazılı lövhələr asılırdı. "Ədəb Ya Hu" sözünün fərd və cəmiyyət üçün nə qədər əhəmiyyətli və nə qədər böyük bir xəzinə olduğu indilərdə daha yaxşı aydın olmaqdadır.

Ədəb və iffət namusun pərdəsidir. Namus ancaq ədəb və həya ilə mühafizə edilər. Həyat deyilən şey ədəbdir. İlahi sirlərdən bir sirr olan ədəb, insanın ən böyük zinəti və nurudur. Bəli, ədəb insanı kamilin məftun olduğu, lakin şeytanın və şeytan kimi insanların xoşlanmadığı gözəl əxlaqın ən əhəmiyyətli şöbələrindəndir. Ədəb və iffətin düşməni ədəbsizlikdir. Ədəb hər vaxt təqdirlə, həyasızlıq isə lənətlə yad edilər. Bu baxımdan, hər müsəlmanın ən əhəmiyyətli xüsusiyyəti ədəb, həya və nəzakət olmalıdır. Çünki, dininə bağlı kəslərin ən böyük şüarı bunlardır. İnsanın bədəni qidalara möhtac olduğu kimi, ağlı da elm və ədəbə möhtacdır.

İslam dinində ədəb, adamın hər halının müşahidə altında olduğunun şüurunda olmasıdır. Nəfsini islah edib iffət, təmkin, helm, səbir, nəzakət, zəriflik və təvazö kimi xüsusiyyətlərlə ədəblənənlər, Allaha yaxınlaşar və Ona dost olarlar.

***Bəli, ədəb, şeytanın və nəfsi aləmətin boyunu bükən, onu ayaqlar altına alıb məğlub edən və insanı arzusuna qovuşduran ən gözəl vasitələrdən biridir. Bir ayədə belə buyurular: "Şübhəsiz ki, Allah sizə ədaləti, yaxşılıq etməyi və yaxınlara baxmağı əmr edər; həyasızlıqdan, pislikdən və azğınlıqdan nəhy edər. Düşünüb tutasınız deyə sizə öyüd verər." (Nəhl Surəsi 90)***



# TÜRKİYƏ XARİCİ SİYASƏTİNİN YENİ CİZGİLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

***Türkiyə ilə Günbatan ölkələr arasında yaşanan soyuq münasibətlər fonunda Ankaranın xarici siyasətində yaşana biləcək radikal dəyişiklik ehtimalları bir çox müttəxəssislərin diqqət mərkəzindədir. Beynəlxalq münasibətlərin indiki durumunda insan hüquqları, Yaxın Şərq siyasəti və digər müxtəlif bəhanələr gətirilərək Türkiyənin sıxışdırıldığı heç kimə sirr deyil. Artıq vəziyyət o yerə çatıb ki, siyasi kulislərdə çevrilən oyunlar bir tərəfə, Avropa liderləri bu ölkəyə və onun iqtidarına qarşı aşkarcasına mübarizəyə qoşulublar. Belə bir vəziyyətdə Ankaranın Avrasiya Əməkdaşlıq Təşkilatına qoşulması nə dərəcədə gercəkdir və prespektivdə bu ideya reallaşa bilərmi?***

Əvvəllər də qeyd olunduğu kimi, Qərb ölkələrində seçkilərdə "uğur" qazanmağın təcrübədə sınanmış ən optimal variantı "türk malzemesidir". Belə ki, batılı siyasətçilər hökumətdə portfel və ya parlamentdə yumşaq kreslo tutmaq üçün Türkiyəni yerdən yerə vururlar. Sentyabrın 24-də Almaniyada keçiriləcək parlament seçkilərinə sabiq Avropa Parlamentinin sədri Martin Şults Türkiyəyə yönəlik daha "müfəssəl konspekt" hazırlayıb. O, rəqibi Angela Merkeli Ankaranın "nazı" ilə oynamaqda ittiham edərək, Türkiyəyə qarşı daha sərt addımalar atılmasının gərəkli olduğunu vurğulayır. 2012-2017-ci illərdə Avropa İttifaqının qanunvericilik institutuna rəhbərlik etmiş bir siyasətçinin bu tip Türkiyə "sevgisi" əslində elə Avropanın uzun illərdən bəri Ankaraya olan münasibətinin bariz nümunəsidir.

Konkret siyasətçilərin fərdi baxışlarından başqa dövlət səviyyəsində Türkiyəyə olan təzyiqlər, siyasi leksikondan kənar səslənsə də, daha iryənc hal almaqdadır. Yaxın Şərqdə yaradılması planlaşdırılan və Türkiyə də daxil olmaqla regionun dörd dövlətinin ərazi bütövlüyünü təhdid edən Kürdüstan dövləti ideyasının ssenarisinin Qərb ölkələri tərəfindən yazılmasına şübhə yeri qalmır. Yoxsa, Kürdüstan referendumunun Almaniyada parlament seçkilərindən bir gün sonra, yəni sentyabrın 25-də keçirilməsi sırf təsadüfdürmü? NATO tərkibində Türkiyənin İncirlik hərbi bazasında dislokasiya olunan Almaniya hərbiçilərinin İordaniyaya köçürülməsi ehtimalı Kürdüstanamı işarədir? Hadisələrin axarını məntiqlə analiz etdikdə ritorik suallara cavab tapmaq mümkündür. Əvvəlcə Vaşinqton PKK-nın siyasi qanadı olan PYD və YPG-ni İŞİD-lə mübarizə bəhanəsi ilə silahlandırır, hərbi təlimlər keçir, sonra isə Kürdüstanı müdafiə edə biləcək səviyyəsində nizami ordu durumuna gətirir. Artıq, müxtəlif müasir silahlarla təhciz edilmiş 500 min kürd yaraqlısının mövcudluğu təstiq edilmişdir. ABŞ Kürdüstanın müstəqilliyi ilə bağlı referenduma qarşı olduğdunu rəsmən açıqlasa da, buna inanmaq çətindir.

***Müasir diplomatiyanın indiki konyukturasında Rəcəb Tayyib Ərdoğan xarici siyasətdə atacağı addımların məsuliyyətini şübhəsiz ki, anlamaqdadır. Avropa İttifaqı ilə bütün müzakirələrin dayandırılmasına baxmayaraq, Türkiyənin Avropadan qopub Asiyaya – Şanxay Beşliyi və Avrasiya Əməkdaşlıq Təşkilatına meyillənəcəyi haqqında yürüdülən fikirlər yaxın gələcəkdə qeyri-real görünür. Ərdoğan hər nə qədər Şanxay Beşliyini daha güclü və tutarlı qurum hesab etsə də, indiki durumda adı gedən təşkilatla əməkdaşlığa zəmin yaranmamışdır. Avropa İttifaqının iqtisadi çəkisi də Avrasiya Əməkdaşlıq Təşkilatı ilə müqayisəyə gələn deyil. Türkiyə prezidentinin bu cür bəyanatlarını Avropadan gələn təzyiqlərə qarşı siyasi gedişlər kimi dəyərləndirmək olar. Digər tərəfdən, Türkiyənin NATO-nun üzvü olduğunu da unutmaq olmaz. Onsuz da Ankaranın müstəqil xarici siyasətini Qərb dünyası "şıltaqlıq" kimi qəbul edir. Hətta, bəzi radikal avropalı siyasətçilər Türkiyənin xarici siyasətinin Avropa hüquqi-siyasi müstəvisi ilə bir araya gəlmədiyi üçün Ankaranı NATO-dan kənarlaşdırılması kimi absurd fikirlər də səsləndirməkdədirlər. Avropanın aparıcı ölkələrində baş tutacaq seçkilərdən sonra Qərb dünyası ilə Türkiyə münasibətlərində qismən də olsa mülayimləşmə müşahidə olunacağı gözlənilir.***

# ALMANİYA TÜRKİYƏ SİYASƏTİNDƏ TƏKLƏNDİ

Avropa Birliyi ölkələri Almaniyanın Türkiyəyə qarşı iqtisadi təzyiqlərini dəstəkləmir.

Bu barədə Almaniya Xarici İşlər naziri Ziqmar Qabriel məlumat verib.

"Avropada digər ölkələr bizim kimi düşünmür. Bəzi ölkələr deyir ki, icazə verin Türkiyə ilə əməkdaşlığı davam etdirək. Biz bu məsələdə fərqli düşünürük".

Z.Qabriel Almaniyanın müxalif partiyalarının Türkiyənin Avropa Birliyinə üzvlük müzakirələrinin dayandırılması çağırışlarına qarşı olduğunu bildirib. O, belə bir addım atılmasının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı daha da gücləndirəcəyini iddia edib.

# RUSİYA SOVET İTTİFAQININ BÜTÜN BORCLARINI BAĞLADI

Rusiya SSRİ-nin dağılmasından sonra hesabına yazılan 64 milyard dollar borcun hamısını ödəyib.

Bu barədə Rusiya Maliyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, plan çərçivəsində borcun 125,5 milyon dollarlıq son hissəsinin Bosniya və Herseqovinaya göndərilməsiylə Sovet İttifaqının borcu sıfırlanıb.

125,5 milyon dollarlıq borc 2017-ci ilin büdcəsindən qarşılanıb.

Xatırladaq ki, bundan əvvəlki ödəniş 60,6 milyon dollar olmaqla Makedoniyanın borcunun ödənilməsinə sərf edilmişdi.

# MEKSİKA ABŞ-LA SƏRHƏDDƏ DİVARLARIN TİKİNTİSİNİ MALİYYƏLƏŞDİRMƏYƏCƏK



Meksika hökuməti prezident Donald Trampın təklif etdiyi kimi ABŞ-la sərhəddə divarların inşa olunmasını maliyyələşdirməyəcək. Bu cür bəyanatla Meksika XİN çıxış edib.

Məlumatda deyilir: "Meksika hökuməti dəfələrlə bildirib ki, heç bir halda ABŞ ərazisində Meksika sərhədi boyunca divarların və ya başqa fiziki manеələrin tikintisinə pul ödəməyəcək. Bu danışıqlarda Meksikanın strategiyası deyil, mövqeyidir, bu suverenlik və milli ləyaqət prinsiplərinə cavab verir".

Avqustun 27-də ABŞ prezidenti Donald Tramp Meksikanı cinayətkarlığın ən yüksək səviyyədə olduğu ölkələrdən biri adlandıraraq yenidən divarların tikilməsi məsələsini gündəmə gətirib.

Meksika ilə sərhəddə maneələrin tikilməsi Trampın seçkiqabağı vədlərindən biridir. Divarların tikilməsi barədə fərman Tramp tərəfindən hələ yanvarın 25-də verilmişdi. Onun uzunluğu 3 min kilometrdən çox olmalıdır. ABŞ lideri bu divarların tikilmə xərclərini Mexikonun ödəməli olduğunu dəfələrlə vurğulayıb. Meksika prezidenti Enrike Penya Neto isə öz növbəsində ölkəsinin divarların tikilməsini maliyyələşdirməyəcəyini bildirib.

# KORRUPSİYA DÜNYA İQTİSADİYYATINA AĞIR ZƏRBƏ VURUR

BMT-nin Xəbərlər Xidmətinin məlumatına görə, dünyada rüşvətin illik həcmi bir trilyon dollardır. Bundan əlavə dünya iqtisadiyyatı korrupsiya fəaliyyəti ilə əlaqədar olaraq hər il daha 2,6 trilyon dollar itirir. Bu vəsait isə ümumilikdə qlobal ÜDM-ın beş faizindən artığını təşkil edir.

BMT İnkişaf Proqramının məlumatlarına görə, inkişaf etməkdə olan ölkələrdə korrupsiya ilə əlaqədar itkilər inkişaf məqsədinə yönəldilən rəsmi yardımların həcmindən 10 dəfə çoxdur.

Məlumatda korrupsiya nəticəsində inkişaf etməkdə olan ölkələrin hər il 20 milyard dollardan 40 milyard dollaradək maddi itkiyə məruz qaldıqları da vurğulanır.

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ HƏR İL 222 MİLYON TON ƏRZAQ ZİBİLLİYƏ YOLA SALINIR



Hər il Böyük Britaniyada 15 milyon tonadək ərzaq məhsulları atılır. Bütövlükdə hər il Avropa İttifaqı ölkələrində 90 milyon tona qədər qida məhsulu zibilliyə atılır. Bu, iqtisadiyyata milyardlarla dollar zərər vurur, habelə ətraf mühitə mənfi təsir göstərir.

Ərzaq məhsullarının səmərəli istifadə olunmaması ciddi problemdir. İnkişaf etmiş ölkələrdə hər il 222 milyon ton ərzaq zibilliyə yola salınır ki, bu da Afrikada Saxaradan cənubda istehsal olunan ərzağa bərabərdir. Dünyada insanın istehlakı üçün istehsal olunan ərzaq məhsullarının 1/4-dən 1/3-ə qədərini itkilər və ya tullantılar təşkil edir.

Ekspertlərin rəyinə görə, yaranmış problemin əsas qaynağı ticarət şəbəkələridir. Onlar "birinin qiymətinə ikisi" kimi aksiyaların köməyi ilə istehlakçıları daha çox ərzaq almağa məcbur edirlər. Nəticədə ərzağın 30-50%-i mətbəx rəflərində və ya soyducularda xarab olur və sonra isə zibil qutularına atılır. Problemin dolayı səbəblərindən biri isə ərzaq məhsullarının saxlama müddətinin qəsdən az göstərilməsidir.

# YAZI YAZMAĞI TƏRGİDƏN ADAM KÜTLƏŞİR

***Çoxları qrafologiyaya inanmasa da, kalliqrafiya insanın ruhi sarsıntıları barədə söhbət aça bilər. Qrafoloq Nataliya Bıkovskaya əllə yazmaqdan imtina edib mətni bilgisayarda yığmaqla adamların kütləşdiyini güman edir.***

Bıkovskaya əmindir ki, xətt təhtəlşüur olaraq yaranır, insanda baş verən psixoloji halları anlamağa imkan verir. Xəttin özünün yaş və cins psixologiyası da var. Üstəlik, xətt xəstəlik və ruhi sarsıntılardan asılı olaraq dəyişə bilər. Qrafoloq Sputnikə verdiyi müsahibəsində bunlar barədə müfəssəl məlumat verib.

— Nataliya, bildiyim qədərincə qrafologiya psixologiya ilə sıx bağlıdır?

— İnsanda hələ lazımınca ifadəsini tapmamış şürun varlığı və onun vacibliyi barədə ilk dəfə Freyd bəhs edib. Yunq bunu nəinki təsdiq etmiş, həm də bunun müəyyən quruluşa malik tiplərinin mövcudluğunu sübut edərək, onların təsvirini vermişdir. Yunqun nəzəriyyəsinə görə, insanlar ekstravertlərə və introvertlərə bölünürlər, onlarda rasional (etika, məntiq) və irrasional (sensorika, intuisiya) funksiyalar inkişaf edə bilər. Bu funksiyalar insanın qavrayışlarını, reaksiyalarını və davranışlarını müəyyənləşdirir.

Sensorlar hər şeyi həqiqi mənada və konkret qəbul edənlərdir. Öz beş hiss üzvlərinə əsaslanırlar. Gerçəkçidirlər. Duyğusallar dünyanı mücərrəd qavrayanlardır. Onlar daxili yaddaşlarına əsaslanır, xırda detallara fikir vermirlər. Hipotezaları sevirlər. Etiklər insanların daxili, ruhi dünyaları cəlb edir, başqalarının əhvali-ruhiyyəsini dəqiq hiss edirlər. Qarşılıqlı münasibətlərə meyllidirlər. Məntiqçilər isə əksinə, məqsəd və vəzifələrə meyllidirlər.

— Qrafologiya nə ilə məşğul olur?

— Əvvəlcə biz adamın hansı qrupa aid olduğunu müəyyənləşdiririk, sonra isə fərqləri hesablayırıq. İki nəfər sensor ola bilər, lakin biri daha çox hisslərilə, digəri məntiqilə hərəkət edə bilər. Belə variantlar çoxdur. İsrail, Macarıstan, Çin, Hindistan, İtaliya, İspaniya, İsveçrə, Fransa, Kanada, ABŞ və digər ölkələrdə qrafologiya dövlət səviyyəsində tanınır: elmi dərəcələr təsis edilib, ali məktəblərdə tədris edilir, məhkəmələrdə, işə qəbul və peşəyönümü zamanı istifadə olunur.

— Bu dörd qrupun nümayəndələrinin xətti necə fərqlənir?

— Ayırd etmədən demək olmaz. Sensorlar xəttin üstündən daha möhkəm basır, mətni daha sıx bölürlər. Məntiqçilərin xətti gözəldir, yaxşı təşkil olunub, cizgilər daha zərifdir. Etiklərin xətti girdədir. Hörük şəkilli, bütöv, ola bilsin ki, bəzədilmiş hərflərdən bir növ hörmə yazı alınır. Duyğusallarda xətt sapşəkillidir, sadədir. Sözlər arasında məsafə böyükdür.

— Hansı hallarda xətt dəyişə bilər?

— Yazan beyindir, əl deyil. Ona görə də daxilimizdə baş verən bütün proseslər xəttimizdə əks olunur. Əgər insan böyüyüb təcrübə toplayırsa, bu, onun yazısından da görünür. Müəllifinin əhvali-ruhiyyəsindən asılı olaraq, xətt daha möhkəm və ya yumşaq olur. Mətndə "deşikciklər" və "sütuncuqlar" meydana çıxırsa, bu, hansısa ruhi sarsıntılarla bağlıdır. Hərflərin forması da dəyişir. Məsələn, stresdən onlar sivriləşirlər. Xəstəlik xətdə öz izini qoyur, əllərdə yaranan əsməcədən cizgilər yarımçıq qalır. Xətt bizimlə birgə inkişaf da edə bilər, tənəzzül də.

— Bir yerdə yaşayan insanların zamanla yazı tərzi oxşar ola bilərmi?

— Bəzilərində. Tramp ailəsi buna gözəl nümunədir. Melaninin xəttinə baxaq, onun xətti ərinin xəttinə çox bənzəyir. Ailədə istənilən halda bir-birinə uyğunlaşma gedir. Fikir vermisinizsə, adamlar yaşlaşdıqca hətta bir-birlərinə oxşamağa başlayırlar. Xətlər də belədir. Lakin, bu, o demək deyil ki, onlar identikdirlər. Qrafologiyanın gözəlliyi nədədir? O, xəttin yalnız xaricini deyil, həm də daxili qatlarını öyrənir. Basmağı, mürəkkəbin paylanmasını. Bu, insanın barmaq izləri kimidir. Onları saxtalaşdırmaq olmaz və yaşlandıqca onlar dəyişmir. Mən Mark Şaqalın xətti barədə məqalə hazırlamışdım. İllər ərzində xətt olduqca dəyişmişdi. Lakin yazının aşağı hissəsi oxşardır. Hətta sürət və basma rəssamın bütün ömrü boyu qorunub.

— Nataliya, çoxları mətni bilgisayarda yığdığından yazmağı unudurlar. Bu meylə necə münasibət bəsləmək olar?

— Əgər biz yazmağı unutsaq, onda aydın, dəqiq, sürətli düşünə bilməyəcəyik. Finlandiyada təcrübə aparılıb. İbtidai məktəbdə uşaqlara yazı tədrisi ləğv edilib. Bunun əvəzinə uşaqlara planşet verilib. Uşaqların İQ səviyyəsi düşməyə başlayıb. Yazdığımız zaman baş beynimizin ən azı on şöbəsi fəaliyyət göstərir. Bunlar yaddaş, görmə, səs, toxuma, hərarət, sintez və başqalarıdır. Yazı ağlımız üçün məşqdir.

— Xətt insan haqqında onun xarakterindən başqa daha nə deyə bilər?

— Qrafologiya məktəblərinin ən güclülərindən biri İsraildədir. Orada xətlə insanın xəstəliyini müəyyən edə bilirlər. Mən bunu edə bilmirəm. Amma mən bacardığım qədər insan haqqında, onu hərəkət etdirən maraqları, dəyərləri, onun nə qədər aqressiv və məsuliyyətli olması barədə nəsə deyə bilərəm. Vərdişləri müəyyən edə bilməsəm də, insanın bağlılığa meylinin olub-olmamasını deyə bilərəm.

Xətt insanda baş verən bioloji deyil, psixoloji dəyişiklikləri anlamağa imkan verir. Bundan başqa, xəttin özünün psixoloji yaşı və cinsi var. Düzdür, onu təhlil edərkən bəzən yanılmaq da olar. Bəzən 50 yaşında kişinin xətti yeniyetmə yazısına bənzəyir. Bu, çox şeydən xəbər verir. Məsələn, hansısa etirazdan, əlaqədəki çətinlikdən və s. Kişilər arasında qadın əlamətlərinə – empatiyaya da təsadüf olunur. Müvafiq olaraq onların xətti qadınlarınkı kimi daha girdə, yumşaq olur. Eyni şey zərif cinsdə də baş verir. Anjelina Colinin xəttinə fikir verin. Bu, siyasətçi xəttidir. Colinin xətti kişi tiplidir.

— İnsanın imzası nədən xəbər verə bilər? Məsələn, mən imzamı latın hərfləri ilə çəkirəm.

— İmzaya görə adamın necə fəaliyyət göstərdiyini, onun yaradıcı olub-olmamasını başa düşmək olar. Lakin onu xətdən ayrı təhlil etmək olmaz. Çünki xətt bizim vizit kartımızdır. Daha doğrusu bu, bizim adamlara necə görünmək istəyimizdir. Xətt isə əslində necə olmağımızdır. O, bizim təhtəlşüurumuzla diktə olunur. Fikir verin məktəbdə bütün şagirdlər eyni cür yazırlar. Sonra avtomatizm işə düşür. İnsan yazdığını düşünmür. Onda şəxsiyyətin bütün fərdiliyi meydana çıxmağa başlayır. Qrafologiya məhz məktəb standartından kənara çıxmanı araşdırır.

Əgər adamın imzası genişdirsə, deməli, o, çox yaradıcı adamdır. Əgər imza xətdən çox fərqlənirsə, bu böyük bəladır. Bu o deməkdir ki, adamın özü haqqında gerçək təsəvvürü yoxdur, o, maska arxasında gizlənir.

— Məsləhət üçün sizə əsasən kimlər müraciət edirlər?

— Adi adamlar. Tez-tez peşəyönümünə görə gəlirlər. Xətti təhlil etməklə adamın harada daha rahat işləyəcəyi qənaətinə gəlmək olar. Şəxsi diaqnostika üçün müraciət edən müştərilər də var. Onlar özlərini anlamaq, inciklikləri aradan qaldırmaq, həyatda ssenarilərin nəyə görə təkrarlandığını və öz potensiallarını müəyyənləşdirmək üçün müraciət edirlər. Populyarlığına görə üçüncü yerdə xəttini düzəltmək istəyənlər durur. Bəzən təşkilatların və şirkətlərin nümayəndələri müraciət edərək, yüksək vəzifə üçün müraciət edənlərin keyfiyyətini yoxlamaq istəyirlər.

Tərcümə Afayət Afiqə məxsusdur



# MƏNİM HÜSNXƏT DƏFTƏRLƏRİM

***(fonoqrafik)***

İBRAHİMXƏLİL

***Dünən gənc şair Küskün Miskinoğlunun yenicə çapdan çıxmış kamali-səliqə kitabını gətirdilər; çəmi on gün əvvəl "Namə" (gürcücə: "Ustari") nəşriyyatına təqdim edibmiş. Hər təzətər kitabı görəndə "yağışdan sonrakı göyüzü" (ifadə Vaqif Bayatlınındır) misallı uşaqtək sevinən Mirzə Qələm hələ də mətbəə iyi verən kitabı nəvazişlə sığalladıqdan sonra fikirli-fikirli dedi:***

– Anan ölsün, ey obrazlı orta əsrlər!

...sən demə, orta əsrlərdə kitablar xəttatlar, yəni gözəl xətti olan adamlar tərəfindən yazılırmış, deyilənlərə görə, bir kitabın yaradılmasına bəzən hətta beş-altı il vaxt gedirmiş.

Gənc şair Küskün Miskinoğlunun (burasını deməyi unutdum ki, Süsən-Sünbül tərəflərdə oxşar "Dərdli", "Qəmli", "Vərəmli", "Ahlı", "Fəraqlı", "Kədərli", "Məlallı" kimi təxəllüslərə hələ də üstünlük verən müəlliflər çoxdur) dəst-xəttinə bələdəm: yəni şəxsən öz əli ilə yazdığı yazıları görmüşəm.

Yeri gəlmişkən, unudulmaz Mirzə Cəlildə belə bir cənfəza cümlə var: "...cavab verdilər ki, dəst-xətləri yoxdur". Eynən həmin yarıalmatək oxşar minasaz minvalla, Küskün Miskinoğlunun hərfləri təsvir etmə tərzi, yəni xətti gözəl deyil, üstəlik də, o, iddia edir ki, ümumiyyətlə, hərflərin yalnız çap şəkli olmalıdır, əlyazma şəkli olmamalıdır. Bu, bəlkə də onun və bəzi qələm dostlarının qələmlə deyil, kompüterdə yazmaqlarından irəli gəlir. Bilmirəm...

...amma dünən birdən-birə eşidəndə ki, Küskün Miskinoğlu özü üçün bir neçə hüsnxət dəftəri tutub və əyri-üyrü, ilan-qurbağa xəttini düzəltməyə çalışır, hətta orta əsrlər xəttatlarının dəst-xətti ilə də maraqlanır, açığı, tərsçalov təəccüb məni bürüdü. Baxmayaraq ki, gözəl kitablar yazmaq üçün xətt gözəl olmaya da bilər, lakin gənc şair Küskün Miskinoğlunun cidd-cəhd xətt xülyapərvərliyi maraq doğurmaya bilməzdi. Arada Mirzə Qələm deyindi ki, kaş bu, müəllifin boyun borcu olaraq xətti-xuda (Yaradanın xəttinə yaxınlıq) məsələsi olaydı, ya da ən azından xətti-rüxsar məsələsi olaydı!..

Məsələnin məğzi isə "yazı terapiyası"nda imiş. Müxtəsəri, elə ki, gənc şair Küskün Miskinoğlu xəttin analizi haqqında oxuyur və belə məlum olur ki, pis xətt də, yaxşı xətt də insanın psixoloji durumunu müəyyənləşdirə bilir, hətta adamın xəttinə baxmaqla ona diaqnoz da qoya bilirlər. Məsələn, adamın əsəb, endokrin, ürək-damar problemlərini onun xəttində axtarmaq lazım gəlirmiş! Sən demə, Yaponiyanın və İsrailin bütün böyük şirkətlərində kalliqrafiya (xəttatlıq) müəllimləri ilə məşğələlər əsas sayılırmış. Gözəl xətt insan beyninin işini yaxşılaşdırırmış. Kreativ insanların intellekti daha da yüksəlirmiş!..

Sən hələ "o"nun xəttü-xalından oxumaqda ol, sənə hardan xəbər verim...

Bu arada ibtidai siniflərdəki hüsnxət dəftərlərim yadıma düşür. Etiraf edim ki, xəttim yalnız yuxarı siniflərdə formalaşmışdı. Di gəl ki, ali məktəbdə mühazirələr, sürətlə yazmaq tələbi xəttimi öldürməyə başladı.

Mübaliğə olmasın, müəllim işlədiyim illərdə şagirdlərimi , qəzetdə çalışdığım dövrdə də bəzi müəllifləri xəttindən tanıya bilirdim. O necə deyərlər, xəttini mənə göstər, sənin kim olduğunu söyləyim...

P.S.

Doğrudur, sirlər paylaşılmaz, amma gözəl xətti olan oxucuya etibar edirəm: aradan bu qədər illər keçəndən sonra... hamıdan çox "o"nun xumar xətti yadımda qalıb. Və unudulmaz Ənvər Məmmədxanlı bu yerdə sanki "o"nun haqqında yazıb: "Uşaq xəttinə oxşar o tanış xətti görərkən yenə əllərim titrəmişdi".

***...bütün hallarda, xəttinizi şablonlardan uzaq tutun! Nevroloq nədən sizi gözləsin ki?!***

# DÖRDÜNCÜ ONE CAUCASUS – VAHİD QAFQAZ FESTİVALINDAN QEYDLƏR




Avqustun 24-də Marneuli Bələdiyyəsinin Tserakvi kəndində start götürən "Vahid Qafqaz" (ONE CAUCASUS) adlı ənənəvi Beynəlxalq musiqi festivalı avqustun 27-də təntənəli şəkildə qala-konsertlə başa çatıb. Festivalın gələn il yenidən təşkil olunması nəzərdə tutulur.

Festivalın yekun tədbirində Marneuli Bələdiyyəsinin Mədəniyyət Evi nəzdində fəaliyyət göstərən musiqi kollektivi, eləcə də Gürcüstanın ayrı-ayrı bölgələrindən, habelə Azərbaycandan, Ermənistandan və Seneqaldan dəvət olunmuş müğənnilər müxtəlif musiqi parçaları səsləndiriblər. Festivalda tamaşaçıların yerli və xarici qrupların birlikdə yaratdıqları rəngarəng musiqi parçalarını ekskluziv şəkildə dinləmə imkanları var idi.

Festivalın təntənəli bağlanış mərasimində Yerli Özünüidarəetmənin rəhbər şəxsləri, əməkdaşları, yerli sakinlər və b. iştirak edirdilər.

Xatırladaq ki, Marneulidə ONE CAUCASUS – "Vahid Qafqaz" musiqi festivalı 2014-cü ildən təşkil olunur və ildən ilə bu tədbirə qatılanların sayında artım müşahidə edilir, üstəgəl hər il tamaşaçılar fərqli proqramları seyr etmək imkanı qazanırlar.

Qeyd etmək lazımdır ki, festivalın hazırlıq işlərində həm yerli, həm də dünyanın müxtəlif ölkələrindən dəvət olunmuş könüllülər iştirak edirdilər. Bir ay ərzində könüllülər fərqli dekorasiyalar, proqramlar yaradaraq, "Arzularımızın Tam Olmayan Şəhəri" adlı şəhər inşa ediblər. Festival çərçivəsində uşaqlar üçün əyləncə zonası yaradılıb, əl işləri satışı təşkil olunub, müxtəlif mövzularda işgüzar görüşlər/vorkşoplar və kinoseverlər üçün kinoteatr zonası təşkil edilib.

"Vahid Qafqaz" festival artıq dördqüncü dəfədir ki, təşkil olunur. O, üç ölkənin mədəni sərhəddində keçirilir və musiqiçiləri, incəsənət işçilərini, animatorları, arxitektorları və bütün dünyanın müxtəlif yerlərindən gələn könüllüləri birləşdirir. Festivalı keçirməkdə məqsəd Cənubi Qafqazda yaşayan gənclər üçün təhlükəsiz məkan yaratmaqdır ki, bu məkanda onlar imkanlarını və bacarıqlarını nümayiş etdirə bilsinlər.

Bu il festival 12 ölkədən gələn nümayəndələri bir araya gətirib. Bu ölkələr bunlardır – Gürcüstan, Azərbaycan, İran, Ermənistan, Rusiya, Türkiyə, Ukrayna, Litva, Polşa, Tunis, Seneqal və ABŞ.

Turac İBRAHİMOVA

# ƏMƏK DƏRSLƏRİ YENİDƏN TƏDRİS OLUNACAQ

Oktyabr ayından Gürcüstanın dövlət məktəblərində yeni fənn – əmək dərsi tədris olunacaq. Əmək dərslərinin tədrisi məcburi deyil.

Əmək dərslərinin tədrisi 2014-cü ildən ləğv edilmişdi. 2017-ci ilin oktyabrından 7-ci, 8-ci və 9-cu sinif şagirdləri yenidən müxtəlif vərdişlərə yiyələnə biləcəklər.

Pilot layihəsinin uğurla həyata keçirilməsi məqsədilə Təhsil və Elm Nazirliyi, məktəblər və texniki peşə məktəbləri şagirdlərin müxtəlif müəssisələrdə təcrübi məşğələlər keçməsi üçün fəal əməkdaşlıq edəcəklər.

Əmək dərsləri praktiki biliklər əldə etmək üçün minimal baza yaradılmış məktəblərdə tədris olunacaq.

Təhsil nazirinin müavini Liya Qiqauri bildirib: "Şagirdlərin əmək fəallığını və əmək motivasiyasını artırmaq üçün məktəb yaşlarında əmək vərdişlərinin inkişaf etdirilməsinin çox böyük



əhəmiyyəti var".

Əmək dərslərini əsasən texniki peşə məktəblərinin pedaqoqları tədris edəcəklər, lakin bu məqsədlə müəllimlərin müəyyən hissəsinin yenidən hazırlanması da istisna edilmir. Bir əmək dərsi üçün müəllimlərə 10 lari ödəniləcək. Bu layihənin həyata keçirilməsi üçün 2 milyon lari ayrılıb.

# TEXNİKİ PEŞƏ MƏKTƏBLƏRİNİN MƏZUNLARI TƏHSİLLƏRİNİ ALİ MƏKTƏBLƏRDƏ DAVAM ETDİRƏ BİLƏCƏKLƏR



Gürcüstanın təhsil və elm naziri Aleksandr Cecelava texniki peşə məktəblərini bitirmiş şagirdlərin təhsillərini ali məktəblərdə davam etdirə biləcəklərini bəyan edib.

Gürcüstanın peşə məktəblərində məktəb proqramı tədris olunmadığından bu təhsil müəssisələrinin məzunlarına orta təhsil haqqında attestat verilmir.

Cecelava deyib: "Biz texniki peşə məktəblərini bitirənlərin 12-ci sinif attestatları almaları üçün imkan yaratmaq istəyirik. Daha doğrusu 9-cu sinifdən sonra təhsillərini texniki peşə məktəblərində davam etdirən uşaqların 12-ci sinif attestatı almaq imkanları olacaq. Arzuladıqları təqdirdə onlar təhsillərini ali məktəblərdə davam etdirə biləcəklər".

Qeyd edək ki, 2013-cü ildən peşə təhsili sistemində islahat aparılması məsələsi Gürcüstan hökuməti üçün əsas məsələlərdən biridir.

Xatırladaq ki, hazırda Gürcüstan miqyasında 37 texniki peşə məktəbi və onların 10 filialı fəaliyyət göstərir.

# 21 FAKÜLTƏDƏ TƏHSİL DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞDİRİLİR



Bu il 39 min abituriyentdən 28,1 mini tələbə adı qazana bilib. Bu barədə Gürcüstan Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin rəhbəri Maya Miminoşvili məlumat verib.

Miminoşvili 1008 abituriyentin Vahid Milli İmtahanlar nəticəsində 100 faizlik maliyyələşmə qazandığını qeyd edib. 1457 abituriyent 70 faizlik, 4080 abituriyent isə 50 faizlik qrant qazanıb.

Miminoşvili deyib: "Statistik göstəricilər baxımından bu, yaxşı nəticədir, mən bundan razıyam".

4 mindən çox abituriyent təhsili 100% dövlətin maliyyələşdirdiyi fakültələrə daxil olub.

Qeyd edək ki, dövlət abituriyentlər arasında populyar olmayan və tələbə çatışmazlığı qeydə alınan ali məktəblərin 21 fakültəsində təhsili tam maliyyələşdirir. Buraya aqronomluq, baytarlıq, heyvandarlıq, yeyinti texnologiyası, meşəçilik, pedaqoji təhsil, mühəndis fizikası, energetika və elektik mühəndisliyi, aqromühəndislik, riyaziyyat, fizika, kimya, biologiya, iqtisadiyyat, tarix, filologiya, fəlsəfə, arxitektura, arxeologiya kimi ixtisaslar aiddir.

Onun sözlərinə görə bu il bir neçə müsbət hal qeydə alınıb, xüsusilə də Vahid Milli İmtahanlar nəticəsində 1047 qeyri-gürcüdilli abituriyent tələbə olub.

# BİRİNCİLİRƏ PORTATİV BİLGİSAYARLAR HƏDİYYƏ EDİLƏCƏK

Yeni tədris ilində Gürcüstanda birinci sinif şagirdlərinə Acer firmasının istehsalı olan portativ bilgisayarlar hədiyyə ediləcək.

Gürcüstanın Təhsil və Elm Nazirliyi yanında Təhsilin və Elmi İnfrastrukturların İnkişafı Agentliyinin məlumatına görə, sentyabrın 15-də ölkə üzrə ictimai məktəblərin bütün birinci sinif şagirdlərinə portativ bilgisayarlar hədiyyə veriləcək.

Yeni tədris ilində ictimai məktəblərdə 50 300-ə qədər birinci sinif şagirdi qeydə alınıb, onların hamısı Acer TravelMate B117 Notebook PC bilgisayarları alacaq.

Portativ bilgisayarlar birinci siniflərin rəhbərlərinə də veriləcək. Nazirlik bu il 53 700 portativ bilgisayar tədarük edib.

# TBİLİSİDƏKİ DƏMİRƏL ADINA MƏKTƏB BAĞLANDI

Dəmirəl adına məktəbin avtorizasiyası dayandırılıb. Gürcüstanın təhsil və Elm Nazirliyi müvafiq qərar qəbul edib.

Dəmirəl adına məktəbin 5 illik avtorizasiya müddəti başa çatdıqdan sonra yenidən avtorizasiya şurasına müraciətinə müxtəlif səbəblərə görə müsbət cavab verilməyib.

Ümumitəhsil müəssisələrinin avtorizasiya şurasının sədr müavini Qiya Murqulya Dəmirəl adına məktəbin bağlanma səbəbləri barədə danışıb və məktəbdə mütəxəssislər tərəfindən aparılan yoxlamalar zamanı müxtəlif istiqamətlərdə ciddi nöqsanların aşkarlandığını bildirib.

Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Nata Asatianinin sözlərinə görə, Dəmirəl adına məktəbin şagirdləri və pedaqoqları müxtəlif məktəblər üzrə bölünəcək.

Qeyd edək ki, Dəmirəl adına məktəbin problemi Türkiyədə hərbi çevrilişə cəhd hadisəsindən sonra başlanmışdı. Məktəbin meneceri Mustafa Əmrə Çabuk FETÖ terror təşkilatı ilə əlaqədə günahlandırılır və cari il mayın 24-də Tbilisidə saxlanaraq, barəsində həbs qətimkan tədbiri seçilib.

# MİRVARİNİ QAÇIRANLAR

## Akaki Qelovani

*(əvvəli 51, 52, 53-cü saylarımızda)*

Gülünc hadisə baş vedi, ona səbəb isə Bodenştedtin özü oldu. Görünür, yaxşı bələd olduğu ingilis ədəbiyyatı tarixini yadına saldı, böyük şotland şairi Ceyms Makfersonun rolu onu heyran etdi. Xalq motivləri əsasında ölməz poemanı düşünülmüş şairə – Osianiyə yazdırdı və mübahisəyə səbəb oldu, bu da onun ölümündən sonra başa çatdırıldı. Lakin "Osiani" əla təqliddir. "Mirzə Şəfi nəğmələri" də qismən təqliddir, lakin bu cür təqlid almanların Makfersonuna xeyirxahlıq gətirmirdi. Birincisi, şairlik istedadı və fantaziyası ilə Bodenştedt Makfersona yaxın gedə bilməz və ikincisi, Mirzə Şəfi Osiani deyil, real şəxsiyyətdir, böyük Azərbaycan şairidir, realistidir. Budur, hannoverli Makferson bunu nəzərə ala bilmədi və Hesperidlər bağından oğurlanmış, məhz elə onun bölüşdürülməsində almanlar və azərbnaycanlılar güman ki, heç bir zaman razılıq əldə edə bilmədi, qızıl almanı qoyub getdi.

Mirzə Şəfi nəğmələrinin uğurunun əsası izah olunmalıdır. Bu nəğmələrdən canlandırıcı meh əsirdi, Almaniya müstəbidlərinin tutduğu krallığa Şərq bağçasının ətrini gətirirdi, oxucu isə bunu zülmətə daxil olan şüa kimi qəbul edirdi.

Alman poeziyasında Şərq poeziyasının ilk qaranquşu Mirzə Şəfi olmayıb. Orada artıq Hafizi tanıyırdılar.

Hafiz fars dilində "hifzedici" deməkdir. Quranın hifz edilməsini nəzərdə tutur, bunu da böyük şirazlı, sən demə, əzbər bilirmiş.

Fars poeziyasının "şirin sözü" (şəkərləbi), öz xalqının böyük ədəbi zirvəsi, qoca yaşlarında doğma Şirazında 1389-cu ildə dünyasını dəyişmiş Şəmsəddin Məhəmməd Hafizlə almanlar ilk dəfə vyanalı oriyentalist fon Hammerin tərcümələri ilə tanış olublar. Höte bu tərcüməni 1815-ci ildə ələ keçirdi. Bu, orta yaşlı veymarlı müdriyi tamamilə məftun etdi. Ona Rayneyə səfəri, məftunedici Mariyananın ("Züleyxa"nın) məhəbbəti əlavə olundu və 1819-cu ildə artıq onun məşhur "Qərb-Şərq divanı" nəşr olundu, bunu da özünün əhəmiyyəti, dərinliyi, forma gözəlliyi və əbədi gəncliyə doğru cəhdləri ilə "Faust"la yanaşı qoyurlar. Hafizin lirikası sanki Hötenin tapşırığı ilə Hafizin bağlarına yollanan Platenə, Rukertə və Bodenştedtə xeyirxah dostluq təsiri göstərmişdir. Hötenin "Divan"ı, Platenin "Qəzəllər"i, Rukertin "Brahmanların müdrikliyi" və Bodentştedtin "Şəqrqdə min bir gün"ü müdriklik və məhəbbətin, Şərqin və Qərbin qardaşlıq abidələridir, bunlar da "Divan"dan 31 il sonra nəşr edilmişdir, o cümlədən də epiqon poeziyasının parlaq nümunəsi kimi tanınan "Mirzə Şəfi nəğmələri".

***

Hər halda bu toplunun müəllifi kimdir? Mirzə Şəfi, yoxsa Bodenştedt? Vaxt var idi ki, biliklilər fikirləşmədən sənə cavab verirdilər: aydındır ki, Bodentştedt. Doğrudan da onun bildirdiyinə görə və müasirlərinin şahadətnaməsi ilə bu şeirləri tərcümə etməyib, yazıb və ya da yenidən düzəldib. Mirzə Şəfi şair olmayıb və bir şey yazmayıb. Bu kəşf idi, bütün Avropa güzəştsiz ona inandı. Buna Şərq tarixinin A. Müller, A. Krımski kimi nüfuzluları da inandılar. Bodenştedtin dostları, oxucuları inandılar... Müller Mirzə Şəfini "Hannoverli alman" adlandırır, məşhur alim Krımski isə, "Türkiyə və onun ədəbiyyat tarixi"nin I cildində aydın şəkildə nəql edir ki, "Bodenştedt isə nəinki tərcümə edib, onu yenidən düzəldib... Belə ki, Mirzə Şəfinin onun toplusunda demək olar ki,heç nəyi qalmayıb". Məşhur sovet tədqiqatçısı Frans Şiller "Mirzə Şəfi nəğmələri"ni "Bodenştedtin müstəqil əsəri" hesab edirdi. Belə bir fikir ensiklopediyalara və məlumat kitabçalarına ( Brokhauzun və Efronun, Qranatın ədəbi ensiklppediyalarına) daxil edilmişdir.

Fridrix Foqt və Maks Kox Mirzə Şəfi nəğmələri formasın-



da Şərq poeziyası nümunəsini görən Bodenştedti "həddindən artıq populyar şair" hesab edirlər və onun "Divan"ın bənzəri olan kitab yazdığını söyləyirlər.

Almaniyada Bodenştedti bu gün də Mirzə Şəfinin tərcüməçisi kimi çağırmırlar: Puşkini və Hafizi tərcümə edib, Mirzə Şəfinin nəğmələrini isə quraşdırıb və ya da yenidən düzəldib. Mayerin ensiklopedik lüğətinin son nəşrində nəql edilir: "Bodenştedtin "Mirzə Şəfi nəğmələri" bizdə də və xaricdə də qeyri-adi uğurlara malik idi. Alman yazıçılar lüğətinin müəlliflər qrupu da demək olar ki, elə həmin fikirdədir: "Bodenştedtin ən mühüm poetik əsəri "Mirzə Şəfi nəğmələri"dir, burada da fars xalq şairi Mirzə Şəfinin toplusundan qismən istifadə edib..."

Təbiidir ki, (lakin elmi deyil) alman tədqiqatçıları bu günə kimi Bodenştedtin ruhunu narahat etməkdən çəkinirlər, öz həmvətənlərinin mübahisəsiz görkəmli xidmətinə kölgə salan cizgilər barədə susmağı üstün tututrlar.

Mirzə Şəfinin ləyaqətini qoruyan tədqiqatçılar daha bir ifratçılığa varırlar. Onlar onu da nəzərə ala bilmədilər ki, Bodenştedtin özü tərəfindən öz kitabında Mirzə Şəfi şəxsiyyətinin aydın, geniş və vicdanlı xarakterizə olunmasına baxmayaraq, elə müasirlərin özləri Mirzə Şəfinin simasını dumana bürüyüblər, bəzisi onun varlığını inkar edib, bəzisi onu gürcü kimi qələmə verib, bəzisi də onun Züleyxasını və Hafizin məhəbbətini də Bodenştedtə yazıb. Belə ki, o, "Min bir gün"ün müəllifini heç yerdə söyləməyib və nə də təsdiqləyib. Odur ki, hər şey mistifikasiyaya imkanlar yaradıb və hər şey Bodenştedtin başında çatlayıb.

Mirzə Şəfini isə bu olaylar az kədərləndirirdi və ya tezliklə onun adının hansı müzakirə mövzusu olacağı heç ağlına da gəlməzdi. Tiflisdə oturub dərs deyir, nəğmə oxuyur, üzümdən dadıb müdriklik qəlyanını tüstülədirdi.

1845-ci ildə gəncəli müdrik Tiflisdə müəllimliyin başını buraxır. Bu yeri ona Mirzə Fətəli Axundov güzəştə getmişdi və Gəncə qəza məktəbində elə həmin yerə təyin olunur, Gəncəyə getmək hər halda bir az gec, yalnız 1846-cı ildə baş tutur. Özünün ikinci doğma şəhəri Tiflisdən göz yaşları ilə ayrılır və bu vidalaşma şeir ilə ölməzliyə çevrilir, şeir belə başlayır və belə qurtarır:

Sən ey Kür şəhəri, gözəl məkan,
Zənginsən günəşlə və meyvə bağlarınla!
Zənənlərin nazı ilə qəşəngləşirsən,
İgidlərin nərəsilə qüdrətlisən,
Sən mənim kədərimin də, sevincimin də ümmanısan.
Faş edilmiş ləlsən - qəlbimin eşqi,
Qarşında diz çökərək, əlimdə piyalə
Səni tərənnüm etdiyimə şadam!
(Sətri tərcümə)

Müsibətdə də şən olan gəncəli müdriyi qəlbi Tiflisə doğru çəkirdi. Güc-bəla üç il dözdü, 1850-ci ildə onu yenə Tiflisdə görürük və ömrünün axırına kimi elə burada qalır. Tale yenə zarafat etdi: bizim Nikoloz Barataşvili 1845-ci ildə, artıq Mirzə Şəfinin təyinat sərəncamı yazılmış olanda Gəncəyə yollandı və qəbri də qismətinə elə orada düşdü, gəncəli müdriyi tale bizim paytaxtımıza atdı və onun qəbri də elə buradadır. Təəssüf doğurucudur ki, bu böyük nəğməkarların əlaqələri barədə heç nə məlum deyil. Görünür, Mirzə Şəfi yüksək Tiflis cəmiyyətində çox tanınmırdı, yoxsa Barataşvili hardasa onu xatırlayardı. Axı, Sayat Nova, Səttar, Cəfər, Qönçə bəyim, başqa köhnə və təzə, naməlum və ya görkəmli Şərq nəğməkarlarına qarşı canfəşan idi. Doğrudanmı, Mirzə Şəfinin müdriklik məktəbi nəzərdən kənarda qaldı? Bəlkə Abovyan və Barataşvilinin tanışlığı kimi, bunun da üzərinə zaman işıq salacaq?

Mirzə Şəfinin ömrünü başa vurması barədə əhvalatı həmin dövrlər Tiflisdə olan Berje nəql edir. Sən demə, mədə iltihabından əzab çəkən şairə qulluqçu oğlan üzüm gətirir. Çox yeyir. Bu zaman onun dostu Mirzə Həsən qapını açır və onun əlindən yeyilməmiş üzüm salxımını çəkib alır. "Nəyə görə məni ləzzətdən məhrum edirsən", – qəlbi sınmış müdrik ondan soruşur. "Ona görə ki, bu sənə həyatın bahasına başa gələ bilər!". "Sonra neyləyirəm həyatı?, – Mirzə Şəfi deyib, – Məgər az acılandım, az əzab çəkdim? Necə deyərlər, əgər iki-üç il yenə yaşasam və səfeh gənclərə daha heç kimə lazım olmayan müdriklik öyrətsəm, böyük fərqmi olar?" Bu cür fəlsəfi dialoqdan sonra şairin halı pis olur, canına titrətmə düşür və gecəyarısı dünyasını dəyişir. Yeyilməmiş son üzüm salxımı əbədi əlçatmaz idealın rəmzi olaraq qaldı. Bu, 1852-ci il noyabrın 17-də baş verdi. O, müsəlman qəbiristanlığında dəfn olunmuşdur. Və "Kavkaz"qəzetində heç kim nekroloq da dərc etdirməyib. Bu zaman Tiflisdə "Mirzə Şəfi nəğmələri"nin alman nəşri əldən ələ gəzirdi ki, onun üz qabığında gəncəli müdrikin portreti məğrurcasına əks olunmuşdu. Ölüm onun şöhrətini haqladı və onu başqası oğurladı...

Gürcücədən tərcümə
Mirzə Məmmədoğlunundur

# GÜRCÜSTAN "ƏN YAXŞI QƏDİM SVİLİZASİYALAR" ONLUĞUNA DÜŞÜB



Amerikanin The Top Tens saytı istifadəçilərinin seçdiyi 10 "ən yaxşı qədim sivilizasiya"nı təqdim edib. Səs verənlərin dəyərləndirməsinə əsasən Gürcüstan reytinqin üçüncüsü olub.

Gürcüstanı reytinqdə Yunanıstan və Misir qabaqlayır. Reytinqin sonrakı pillələrini müvafiq olaraq Roma, Çin, Hindistan, İran, Astek, Sparta, kelt, orta əsrlər İngiltərə və Efiopiya sivilizasiyaları tutur.

Reytinq qədim sivilizasiyalara xas olan meyarlar üzrə tərtib olunur. Sayt istifadəçilərinin bu və ya digər ölkə barədə öz rəylərini yazmaq, habelə seçdikləri ölkənin nəyə görə qədim sivilizasiyalara aid edildiyini əsaslandırmaq imkanları da olur.

Gürcüstan barədə yazılmış üç yüzdən artıq rəydən ölkənin zəngin koloriti və qonaqpərvərliyinin, gürcü çoxsəsliliyi və rəqslərinin istifadəçiləri valeh etdiyi bəlli olur. Rəylərdə ölkə üzümün vətəni adlandırılır, Qızıl yun və Prometey haqqında əfsanələr xatırlanır.

Məhz Gürcüstanda qeyri-afrikalı qədim hominidin aşkarlanması, gürcü dilinin hələ də istifadə olunan dünyanın 10 ən qədim dillərindən biri olması vurğulanır.

Xatırladaq ki, The Top Tens saytının ötən ilki reytinqində gürcü çarı Qurucu David bütün dövrlərin ən yaxşı sərkərdələri onluğunun birincisi olmuşdu.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 avqust 2017-cı il
№016 (54)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## QƏBƏLƏDƏ BEYNƏLXALQ MÜRƏBBƏ FESTİVALI KEÇİRİLİB



Azərbaycanın Qəbələ şəhərində sayca beşinci Beynəlxalq Mürəbbə festivalı açılıb.

Qəbələnin mərkəzi parklarından birində festivala baş çəkməyə gələnlərə meyvələr, şirələr, çay, dondurma və  ən əsası da geniş çeşiddə mürəbbələr təklif edilib. Giləmeyvələrdən, qızılgül ləçəklərindən, qozdan və hətta sarımsaq və nanədən hazırlanan mürəbbələr görənlərin heyrətinə səbəb olub.

Festivalda 22 əcnəbi və Azərbaycanın müxtəlif regionlarından 44 komanda öz məhsullarını nümayiş etdirib. Qeyd edək ki, Beynəlxalq Mürəbbə Festivalında iştirakçı komandalar yüzdən çox mürəbbə çeşidini nümayiş etdirməyə imkan tapıblar.

Rusiya, livan, İngiltərə, Özbəkistan, Pakistan, Xorvatiya, Slovakiya, Ukrayna, İran, Qazaxıstan, Türkiyə və Serbiyadan festivala gələn qənnadı ustaları, eləcə də bu sahənin yerli peşəkarları böyürtkən, gilas, çiyələk, ərik, qızılgül ləçəyi, heyva və qozdan hazırladıqları mürəbbələri sərgiləmək imkanına malik olublar.

## DÜNYANIN ƏN VARLI YAZARI

İlk hissəsinin nəşrindən 20 il keçməsinə baxmayaraq, hələ də milyonlarla nüsxədə çap olunan, hələ də həm naşirinə, həm müəllifinə milyonlarla dollar gəlir gətirən “Harry Potter” amerikalı yazıçı JK Roulinqin nəinki şah əsəri, həm də həyatının ən uğurlu “biznesi”dir. Bu il “Harry Potter” sevənlər geniş tədbirlər təşkil etdilər və bunlardan çoxunda Roulinq özü də iştirak etdi. Medianın diqqətinin bu tədbirlərə köklənməsinin əsərin satış rəqəmlərinə də müsbət təsiri olub. Qızıl yumurtalayan “Harry Potter”in satışının artması nəticəsində müəllifin adı bu il də Forbesin “Ən varlı yazarlar” siyahısına liderlik edib. Roulinq ötən il yazdığı ssenari əsasında çəkilmiş “Əfsanəvi məxluqlar və onlara harada rastlamaq olar” filmindən və “Harri Potter və lənətlənmiş uşaq” dram əsərinin mətninin satışından 95 milyon dollar gəlir əldə edib.

Roulinq dünyanın “milyarder”lər siyahısına düşən ilk yazardır. 2012-ci ildə Böyük Britaniya milyarderlərə qoyulan vergiləri artırmış və Roulinq vergiləri ödədikdən sonra varidatı milyarddan aşağı düşmüşdü.




Müəllif sonralar milyarder olub, vergi ödəmək yerinə, milyonlarını xeyriyyə işlərinə xərcləməyə üstünlük vermişdi. 2013-cü ildə Roulinq QİÇS-dən əziyyət çəkən uşaqların müalicəsi məqsədilə 160 milyon dollar, 2015-ci ildə isə 87 milyon dollar xərcləyib. 2015 və 2016-cı illərdə Roulinqin gəliri anoloji olaraq 67 milyon dollar və 78 milyon dollar olduğundan siyahıdan geri qalmış və xeyriyyə işlərinə ara vermişdi.

## ƏNƏNƏVİ İÇKİMİZ OLAN ÇAYIN BƏZİ ZƏRƏRLƏRİ

Ənənəvi içkimiz olan, haqqında şeirlər yazdığımız, mahnılar bəstələdiyimiz çay çoxsaylı faydalı və müalicəvi xüsusiyyətlərlə zəngindir. Lakin bir sıra xəstəliklər zamanı bu içkinin istifadəsi ziyanlıdır.

Qastrit, mədə və 12 barmaq bağırsağı xorası, reflüks kimi həzm sistemi xəstəlikləri zamanı, xüsusilə onların kəskinləşməsi dövründə çaydan istifadə olunması ziyanlıdır. Çay mədənin turşuluğunu artırır ki, bu da xəstəliyin gedişatını ağırlaşdırır.

Bəzi böyrək xəstəlikləri, böyrək daşı xəstəliyi zamanı çayın istehlakını azaltmaq lazımdır. Sidikqovucu təsirə malik olan çay böyrəklərə düşən gərginliyi artırır.

Yaşlı insanlarda sümük xəstəlikləri, xüsusilə osteoporoz zamanı çayın həddindən artıq istehlakı ziyanlıdır, çay sümüklərdən kalsiumun yuyulmasını sürətləndirir .

Yuxusuzluq, aritmiyalar, hipertoniya zamanı da çayın istehlakı ziyan vura bilər ki, tərkibində kofein olan çay qıcıqlandırıcı təsir edir və həmçinin ürək döyünməsinin tezliyini və təzyiqi artırır.

Qanazlığı zamanı çay içmək tövsiyə edilmir, çünki çay yeməklərdən dəmirin və zülalların mənimsənilməsinin qarşısını alır.

Hamiləlik zamanı da çayın istehlakını minimuma çatdırmaq lazımdır, çünki çay ürək və böyrək üçün əlavə gərginlik yaradır. Hamiləlik zamanı bu orqanlar onsuz da əlavə gərginliklə çalışır. Yapon alimlərinin araşdırmaları göstərib ki, hamiləlik zamanı çoxlu çay içən qadınların uşaqlarının bədən çəkisi az olur.

## BATUMİDƏ YAPON BAĞI YARADILIR



Batumi sakinləri və şəhərin qonaqları tezliklə piyada gəzintisi üçün daha bir marşuruta sahib olacaqlar.

Gündoğan ölkənin bağ-park incəsənətinin bütün xüsusiyyətlərinə əməl etməklə yaradılacaq yapon bağının cari ilin noyabrında Batumi bulvarının ərazisində, Universitet meydanın qarşısında salınması nəzərdə tutulur.

Bir hektardan artıq ərazidə nohur, şəlalələr, körpücüklər qurulacaq, hündür bambuk ağacları əkiləcək.

Yapon bağının yaradılması işlərinə sentyabrda start veriləcək. Sentyabrın 4-də Batumi bulvar administrasiyası elektron tender vasitəsilə bağın salınması ilə məşğul olacaq şirkəti müəyyənləşdirəcək. Bağın yaradılması işləri 65 gün ərzində başa çatdırılmalıdır. Layihənin gerçəkləşdirilməsi üçün 161,5 min lari ayırılıb.

## RƏQƏMLƏRİN ƏKS ETDİRDİYİ «FACEBOOK»



Son statistik məlumatlara görə dünyanın ən böyük sosial şəbəkəsi olan “Facebook”da 2 milyard 10 milyon istifadəçi qeydiyyatdan keçib.

13 il əvvəl - 2004-cü ildə təsis olunan “Facebook”un hazırda bütün dünyada 10 min 955 nəfər işçisi var. Sosial şəbəkədən istifadə edənlərin orta aylıq sayı 1 milyard 660 milyona çatıb. “Facebook”la bağlı açıqlanan son statistik göstəricilər isə belə olub:“Facebook” istifadəçilərinin 53%-ni qadınlar və 47% kişilər təşkil edir. Hər bir istifadəçinin orta hesabla 155 “dost”u var. İstifadəçilərinin 87%-i 18-29 yaşlı insanlardır və onların 74%-i orta məktəb məzunudur.

ABŞ-da yaşayan 30-49 yaşlı insanların 79%-i “Facebook” istifadəçisidir.

2016-cı ilin üçüncü rübündə “Facebook”un gəlirləri 7 milyard dollar olub. Onun səhimlərinin ümumi dəyəri 245 milyard dollardan çoxdur.“Facebook”da kiçik biznes müəssisələrinə məxsus 40 milyondan çox aktiv səhifə var.

“Facebook”un “like” düyməsinə 1,13 trilyon dəfə basılıb.

2016-cı ilin yanvar ayından etibarən “Facebook Daily”-də 100 milyon saat video izlənib.

“Facebook”a hər gün 350 milyon fotoşəkil, saatda 14,6 milyon video, dəqiqədə 243 min fotoşəkil, saniyədə isə 4000 video yüklənir. Hər 20 dəqiqədən bir 1 milyon bağlantı paylaşılır, 20 milyon dostuq istəyi və 3 milyon mesaj göndərilir. Hər gün 55 milyon status yazılır.

## ARTIQ ÇƏKİ BİR SIRA XƏSTƏLİKLƏRİN YARANMASINA GƏTİRİB ÇIXARIR



Son iyirmi ildə 5 yaşınadək çağa və uşaqlarda artıq çəki və ya piylənmə təxminən bir dəfə yarım artıb və bu, onların sayının 44 milyon nəfərə çatmasına səbəb olub. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaydığı məlumatda xəbər verilir.

ÜST ekspertlərinin fikrincə, uşaq yaşlarında artıq çəkiyə malik olma və piylənmə sonradan bir sıra xəstəliklərin, o cümlədən də diabet, xərçəng, ürək-damar kimi müalicəsi çətin olan xəstəliklərin meydana çıxmasının səbəbinə çevrilir.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.